# Türkoloq-alim Həmid Əliyev



Sovet imperiyası özünün son illərini yaşadığı ötən əsrin 80-90-cı illərində Azərbaycan və dünya ölkələrində baş verən ictimai-siyasi proseslərlə bağlı əsl həqiqətləri operativ şəkildə mətbuat, televiziya, radio vasitəsilə geniş oxucu və tamaşaçı auditoriyasına çatdıran siyasi icmalçılar, politoloqlar barmaqla sayılası qədər az idi. Onlardan biri də Azərbaycanın böyük ziyalılarından olan "Əməkdar mədəniyyət işçisi", tarix elmləri doktoru, professor Həmid Əliyev idi.

Həmid Zeynalabdin oğlu Əliyev 1924-cü il oktyabr ayında Qərbi Azərbaycanın Krasnoselo rayonunun Əmirxeyir kəndində ruhani ailəsində anadan olmuşdu. İlk ibtidai təhsilini rayonun Çaykənd 7 illik məktəbində almış, 1939-cu ildə İrəvanda Nəriman Nərimanov adına türk Pedaqoji Texnikumunu bitirmişdi. 1940-cı ildə Azərbaycan Pedaqoji İnstitutuna qəbul olunsa da, iki ildən sonra Böyük Vətən Müharibəsinə yollanmış və Şimali Qafqaz cəbhəsində ağır döyüşlərdə iştirak etmişdi. Müharibədə yaralandığı üçün 8 ay Bakıda xəstəxanada müalicə olunmuş, nəhayət, 1945-ci ildə ali təhsilini başa vuraraq, doğma Krasnoselo rayonuna qayıdaraq 1945-1949-cu illərdə Toxluca və Gölkənd orta məktəblərində direktor vəzifələrində çalışmışdı.

Həmid Əliyev müəllim peşəsinə bağlı bir ziyalı kimi akademik təhsilini davam etdirməyə böyük maraq göstərmiş və 1949-cu ildə Moskva Beynəlxalq Əlaqələr İnstitutunun aspiranturasına daxil olmuşdur. 1954-cü ildə oranı müvəffəqiyyətlə bitirib, tarix-elmləri namizədi alimlik dərəcəsi alaraq, Bakıya dönmüş, 1955-ci ildən Azərbaycan Pedaqoji İnstitutu və Azərbaycan Dövlət Universitetində pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1967-ci ildə doktorluq dissertasiyasını uğurla müdafiə edərək, tarix elmləri doktoru alimlik dərəcəsi alan Həmid Əliyev 1959-cu ildən ömrünün sonunadək taleyini Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq və Tarix institutlarına bağlamışdır. Görkəmli alimin elmi rəhbərliyi ilə 8 elmlər doktoru, 16 elmlər namizədi yetişmişdir.

Həmid Əliyevin "Türkiyədə xarici kapital", "Türkiyə Birinci Dünya müharibəsində", "Türkiyənin ən yeni tarixi", "Türkiyə gənc türklər hakimiyyəti dövründə", "Ölkələr, şəhərlər, insanlar" adlı kitabları geniş oxucu auditoriyası tərəfindən maraqla qarşılanmışdır.

Həmid Əliyevin elmi-ictimai fəaliyyətində ermənilərin Azərbaycanda və Türkiyədə törətdiyi vəhşilikləri ifşa edən tədqiqat əsərləri xüsusi yer tutur. O, "XIX-XX əsrlərdə türklərə qarşı erməni soyqırımı" adlı monoqrafiya üzərində işləyirdi. Doğma torpaqlarımızın erməni vandalları tərəfindən zəbt edilməsinə dözməyən alim dünya ictimaiyyəti qarşısında xain qonşularımızın məkrli siyasətini ifşa edir, tarixi faktlarla bunu sübut etməyi özünün vətəndaşlıq borcu hesab edirdi. Təəssüf ki, amansız ölüm bu sahədə apardığı zəngin tədqiqatları başa çatdırmağa ona imkan vermədi.

Təcrübəli müəllim, tanınmış tədqiqatçı alim, son dərəcə humanist, mehriban və xeyirxah insan olan Həmid Əliyevin əməyi və xidmətləri hələ sağlığında ikən dövlət tərəfindən qiymətləndirilmişdir. O, "Əməkdar Mədəniyyət İşçisi" adına və "Elmi bilik" mükafatına layiq görülmüş, bundan başqa, "Qələbə", "I dərəcəli Vətən Müharibəsi" ordenləri ilə təltif olunmuşdur.

Həmid Əliyev dünyanın bir sıra elm mərkəzlərində—Vaşinqtonda, Nyu-Yorkda, Ankarada, Parisdə, Sidneydə, Moskvada keçirilən beynəlxalq elmi forum və konfransların iştirakçısı olmuş, məruzələrlə çıxışlar etmişdir. Gərgin və səmərəli əməyinə görə o, Yusif Məmmədəliyev adına medala və mükafata layiq görülmüşdür.

Görkəmli alimin nurlu siması, parlaq xatirəsi, xalqımızın qəlbində daim yaşayacaqdır.

**Zülfüqar ŞAHSEVƏNLİ,**
**"Respublika".**